BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 08 (17) SENTYABR (EYLÜL) 2007

# AZƏRBAYCANDA DƏFN MƏRASİMİ ADƏTLƏRİ

*Taleh Hacıyev* *

Məlum olduğu kimi insan həyatının üç mühüm keçid nöqtəsi var. Bunlar doğulma, evlənmə və ölümdür. Bu vacib mərhələlərin hər birinin özünəməxsus olan bəzi adət, ritual və mərasimləri vardır ki, insanlar həmin adətlərlə həyatlarının bu vacib dönəmlərinə olan münasibətlərini ifadə edirlər. İnsanın öz bioloji həyatını bitirməsi qədim zamanlardan bəri müxtəlif adət və mərasimlərlə müşayiət olunmuş, bütün xalqların mədəni-mənəvi irsində, onların folklorunda özünə mühüm yer tutmuşdur. Həmçinin, Azərbaycan xalqının ölüm və ölüm sonrası yas və dəfn mərasimləri, adət-ənənələri xalqımızın tarixində, onun bugünkü ictimai-mədəni həyatında mühüm rol oynayır. Bu adətlərdən danışarkən ilk öncə qeyd etməliyik ki, xalqımızın dəfn mərasimləri ilə bağlı olan adət və ənənələrində İslam dininin xüsusi əhəmiyyəti vardır. Düzdür, min illər boyunca formalaşmış olan bu adətlərdə həm ibtidai inancların, həm də müxtəlif dövrlərdə xalqımızın sitayiş etmiş olduğu digər dinlərin də izləri günümüzə qədər gəlib çatmışdır. Bu mənada tədqiqatçı Ə.Ələkbərov yazırdi ki, “İslam, yalnız onun əsasına zidd olmayan yerli dini mərasimləri özünə hopdurmuşdur, lakin bununla belə köhnəlmiş ictimai münasibətlərə, xüsusi parlaqlıqla əks etdirilən mərasimlərə qarşı mübarizə aparmışdır.”[1]

Bəzi Sovet dövrü tədqiqatçıları Azərbaycan xalqının dəfn mərasimlərindəki bir qisim adətlərə görə İslam dinini ciddi tənqid etmiş, bu məsələdə tamamilə yanlış olaraq İslam dinini günahlandırmışlar.[2] Halbuki daha sonra görəcəyimiz kimi. İslam dini bir çox yanlış adətlərin əleyhinə çıxmış və

---

[1] А.К.Алекперов, *Исследования по археологии и етнографии Азербайджана*. Издательство Академии наук Азербайджанской ССР,Баку,1960. s.204.

[2] H.A.Quliyev.A.S.Bəxtiyaro,*Azərbaycanda qədim dini ayinlər və onların məişətdə* qalıqlar,Bakı, 1968,s.80;M.Səttərov, *İslam dini qalıqları* Bakı,1967, s.4-57.

bunları yasaqlamışdır. Əsrlər boyunca yaranmış müxtəlif bidətlərdə İslam dinini günahlandırmaq isə ən azı insafsızlıqdır.

Məqaləmizdə xalqımızın dini-ictimai həyatında böyük rol oynayan ölüm hadisəsi ətrafında cəmləşən müxtəlif adət, mərasim və rituallara toxunacaq, onların mənşəyini anlamağa və bugünkü vəziyyətini araşdırmağa çalışacağıq.

Buna görə də tədqiqatımızı ölüm öncəsi,ölüm zamanı və ölüm sonrası olaraq 3 yerə bölməyi məqsədəuyğun hesab etdik.

## 1. Ölüm öncəsi inanc və rituallar.

İnsan ölüm ayağında olan zaman yaxın adamları onun ətrafına yığışır, xəstənin yatağının yaxınlığında ona mənəvi kömək etmək məqsədilə dayanaraq onu son anına qədər tək qoymurlar. Ölüm yatağında olan adama qarşı görülməli olan bir neçə vəzifəyə xalqımız tərəfindən bir qayda olaraq ciddi şəkildə əməl olunur. Bunlar əsas etibarilə xəstəni ziyarət etmək, onunla halallaşmaq, onu qibləyə tərəf çevirmək, üstündə Qurani-Kərim oxumaq və ona kəlimeyi-şəhadət gətirməkdir. Adətən xəstənin övladlarının bu məqamda onun yanında olmasına böyük əhəmiyyət verilir, hətta uzaqda olsa belə, övladın öz valideyninin dəfnində iştirakı zəruri hesab edilir. Bu bir növ övladın valideyn qarşısında son borcu və onunla əbədi ayrılığı kimi başa düşülə bilər. Adət üzrə ölüm ayağında olan xəstənin üstündə Qurani-Kərimin 36-cı surəsi olan yasin surəsi oxunur, nəfəsinin tamamilə kəsilib kəsilmədiyini öyrənmək üçün güzgüdən istifadə olunur. Bu işləri çox vaxt nisbətən yaşlı və xəstəyə yaxın olan adamlar yerinə yetirirlər. Ölüm öncəsi olan adətlər ölüm zamanı müşahidə edilən adətlərlə bilavasitə bağlı olduqlarından onları aşağıdakı bölümdə də araşdıracağıq.

Eyni zamanda burada qədimdən qalmış animistik baxışlara rast gəlmək mümkündür. Xüsusilə ruhla bağlı olan etiqadlarda aydın şəkildə görünür ki, həm İslam dininə aid mənbələrdən götürülmüş, həm də ibtidai inanclardan miras qalmış bəzi təsəvvürlərdən müxtəlif xürafatlar yaradılmışdır. Bunlara misal olaraq deyə bilərik ki, xalq ruhu əsasən quş şəklində təsəvvür edirdi.

Belə hesab olunurdu ki, ölən şəxsin ruhu bədənindən çıxarkən arı siması alır, ərə getməmiş qızlar öldükdən sonra quşa çevrilirlər.[3]

**2. Ölüm zamanı.**

İlk öncə xalqımızın ölümü necə adlandırmasına toxunmaq maraqlı olardı. Məlum olduğu kimi müsəlman ölkələrində, o cümlədən Azərbaycanda da ölümün sadəcə olaraq insanın öz mövcudluq formasını dəyişməsi olaraq başa düşürlər. Bunun izlərinə xalqın folklorunda və ölümlə əlaqədar olan adət və ənənələrində də rast gəlinir. Məsələn, vəfat edən şəxs haqqında əsas etibarilə "rəhmətə getmək", "haqq dünyasına qovuşmaq"[4] kimi sözlər işlədilir ki, bu da İslam dininə görə mərhumun axirət dünyasına köçməsi inancından qaynaqlanır.

Ölü üçün görülən ilk tədbirlərdən biri onun enli bir parça ilə onun çənəsinin bağlanması və ağzının yumulmasıdır. Bundan sonra onun əl və ayaqlarını düz uzadır, üzünü isə ağ bir parça ilə örtürlər. Əgər ölüm gecə baş veribsə ölünün yanında şam yandırılar. Bunu ona görə edirlər ki, guya şər qüvvələr işıqdan qorxduğu üçün ölünün ruhuna xətər yetirə bilməz.

Adət- ənənəyə görə ölümdən sonra meyit dərhal yuylmalı, pak edilməli və kəfənlənməlidir. Qadını qadın, kişini isə kişi yuyur. Ölünü yumaq üçün həyətin uzaq bir yerində qapalı bir yer düzəldilir. Bu yerə yuyad yeri və ya yuyacaq yeri deyilir. Ölünü iki nəfər biri su tökən, digəri isə yuyan olmaq üzrə yuyurlar. Meyit yuyulduqdan sonra ona kəfən biçilir,üstünə sidr-kafur (kamfora) çilənir ki, bu da dezinfeksiya məqsədilə edilir. Ölən insanı paltarsız kəfənə bükürlər. Kəfən ağ kətandan və ya çitdən hazırlanır,üç hissədən ibarət olur:1.Bədənin aşağı hissəsini bürümək üçün parça kəsiyi ; 2.Köynək; 3. Mərhumu başdan-ayağa qədər bürüyən parça; Kəfən mütləq taxta iynə ilə tikilməlidir.Vəfat etmiş arvad üçün əri, kişi üçün onun arvadı, yaxud da onun qohumları və övladları kəfən hazırlamalıdırlar. Daha sonra ölünün qulaqlarına pambıq tıxayır, hər qolunun altına isə söyüd ağacından

[3] R.P.Əfəndiyev, «Azərbaycanlıların dəfn mərasimlərində bəzi islamaqədərki etiqadların qalıqları haqqında», AZSSR, *Elmlər Akademiyasının məruzələri*, XLIII cild.N;5, 1987,s.78.
[4] A.Nəbiyev, *Mərasimlər, adətlər, alqışlar*, Bakı, 1993, s.79;B.Abdulla,*Azərbaycan mərasim folkloru,*Bakı,Qismət,2005,s.140.

kəsilmiş və 20 sm uzunluğu olan çubuq qoyurlar.[5] Bu işləri təcrübəli, dini mərasim və rituallara yaxşı bələd olan, bir çox hallarda ibadətlə məşğul olan adamlar yerinə yetirirlər. Nəzərə alsaq ki, İslam dinində ölünü yumağa və dəfn zamanı kömək etməyə böyük önəm verilir və buna görə çoxlu savab qazanılır, adamların dəfn mərasimlərində göstərdikləri kömək və yardımlarda İslam dininin oynadığı mütərəqqi rol aydın görünür. Meyiti həmin gün dəfn etmək lazım olsa da buna həmişə əməl olunmur, bəzən isə dəfn prosesi bir neçə gün ləngiyir, çünki mərhumun qohum əqrəbasının hamılıqla yığışması gözlənilir. Qeyd edək ki, bu adətin İslam dini ilə heç bir bağlılığı yoxdur, bu adət də sonradan meydana gəlmişdir və bir çoxları bunda haqsız olaraq İslam dinini günahkar hesab edirlər.

Meyiti dəfn etməyə aparmazdan əvvəl cənazə namazı qılınır. Cənazə namazı 6 yaşına çatmamış uşaqlar və intihar etmiş adamlar üçün qılınmır. Lakin, bəzi hallarda intihar etmişlər üçün də namaz qılınmasına rast gəlinir. Bu onunla bağlı idi ki, intihar etmə nadir hallarda baş verir. Həmçinin intihar edənin ailə üzvləri intihar edən şəxs üçün cənazə namazı qılınması istəyində olurlar.

Cənazə namazında adətən mərhumun yaxın adamları ilə yanaşı onu tanıyan bir çox digər adamar da iştirak edir, ona son borclarını verirlər.[6] Cənazə namazı bitib ölü son mənzilə yola salınmazdan öncə namaz qıldıran imam camaata müraciət edərək onlardan mərhum üçün halallıq istəyir, əgər ölənin kiməsə borcu varsa borc yiyəsinin irəli çıxıb borcunu ödəməsini xahiş edir. Halallıq aldıqdan sonra cənazəni qəbiristanlığa aparırlar, bu zaman meyiti birbaşa qaldırıb aparmırlar. Mafəni üç dəfə yerə qoyub götürülər[7]. Meyiti apararkən nə geri nə də ətrafa dönüb baxmaq olmaz, yalnız düz qabağa baxılmalı və səssiz olaraq gedilməlidir. Qəbiristanlığa yalnız kişilər gedir, bir qayda olaraq dəfn üçün qadınların qəbiristanlığa getməsinə rast gəlinmir. Onlar ancaq sonradan ölünün qəbrini ziyarət etməyə gedə bilərlər. Keçmişdə Azərbaycanın hər yerində ölünün dalınca qara daş atmaq adəti var idi[8]. Bu adət demək olar ki müasir dövrümüzdə yaşlı nəslin nümayəndələri

---

[5] N.Quliyeva, Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti, Bakı, 2005,s.256.
[6] Ə.S.Məmmədov, H.A.Quliyev, *Azərbaycan adət və ənnənələri,*Bakı,1966,s.66.
[7] H.A.Quliyev, *Məişətimizdə adət ənənələr*, Azərnəşr, Bakı,1976, s.18.
[8] H.A.Quliyev, Azərbaycanda Ailə məişətinin bəzi məsələlər,.Bakı,Elm, 1986, s.85.

tərəfindən də əməl olunur. Bu onunla izah edilir ki, guya ölən adam “yeni mənzilində rahat olacaq” üçün edilir.

Qəbirin dərinliyi məsələsində İslam dininin təsirləri açıq-aşkar görülməkdədir.Adətə və dini qaydalara görə qadınların qəbri kişilərin qəbrinə nisbətən daha dərin olmalıdır.[9] Bu da kişi və qadının bədənlərində olan dini cəhətdən məhrəm yerlərlə izah edilə bilər.Cənazəni qəbrə endirdikdə də bu adətə əməl olunur, qəbrə qadının nigahlanması mümkün olmayan məhrəm adamları düşürlər.

Azərbaycanda da digər müsəlman ölklərində olduğu kimi ölünü tabutda dəfn etmirlər, lakin bəzi hallarda ölünü tabutsuz dəfn etmək mümkün olmadıqda tabutla dəfn etmək hallarına da rast gəlinir.[10] Amma bütün hallarda müsəlman kəfənə tutulur, paltarsız və kənar əşyalar olmadan dəfn edilir. Kişini qəbrə onun enli tərəfindən endirirlər, qadını isə üzüqibləyə tərəf qoyur və dərhal qəbrə endirirlər. Cənazəni qəbrə endirdikdən sonra onun gözlərinə torpaq tökür, bundan sonra qəbri torpaqla doldurmağa başlayırlar. Qəbri torpaqladıqdan sonra onun üstünə su tökülür ki, bu da əsas etibarilə ölümdən sonra dirilmə inancı ilə bağlıdır.

### 3. Ölümdən sonrakı adət və rituallar.

Dəfn mərasimi bitdikdən sonra adamlar qəbiristanlıqdan evə dönürlər, burada onlara ehsan yeməyi və çay verilir. Adətə görə əsas ehsan yeməyi ölünün üçündə verilir, yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda ölünün üçü, yeddisi, qırxı və ili xüsusilə qeyd olunur.[11] Ehsan yeməyinə gələnlər bir çox hallarda ölü sahibinə maddi-mənəvi kömək etmək məqsədilə siyahı tutaraq müəyyən məbləğdə pul toplayırlar. Ehsan yeməyinə xüsusi dəvət olmasa da qəbirqazanların, mərhumun yaxın adamlarının gəlişi vacib sayılır. Bir çox bölgələrdə ehsan yeməyi ölünün yeddisinə qədər verilir. Daha sonra ölüyə qırx verilir və bununla da yasın sona çatdığı bir növ elan olunur. Azərbaycanda sünni məzhəbinə əməl edən əhali arasında mərhumun 52-ci

[9] T.Q.Səlimov, *Abşeronlular,*Bakı,Elm,1993 s.284.
[10] H.Q.Qədirzadə,Ailə *və məişətlə bağlı adətlər,inamlar, etnogenetik əlaqələr,*Bakı,Elm,2003,s.212.
[11] H.A.Quliyev, *Azərbaycan xalq adətləri*,Bakı,Elm,1972,s14.

gününün qeyd olunması adəti mövcuddur. 52-ci gün ətin sümükdən, dırnağın ətdən, saçın bədəndən ayrıldığı yəni çürüməyə başladığı zənn edilir, odur ki həmin gün onun xatirəsi qeyd olunur, qəbri üstünə gedilir. Ramazan bayramı günü ölüyə qara bayram verilir, həmçinin il bayramı o ailə üçün qara gəldiyi hesab edilir. Hər həftənin 4-cü günü yaxın qohumlar və qonşular birlikdə toplaşaraq qəbir üstünə gedirlər. Digər bayramlarda, xüsusən də novruz bayramında və məhərrəmlik mərasimində ölən adamların ruhunu şad etmək üçün onları yad edirlər. İslam dininə görə ölüsü düşmüş evə kömək edilməsi, qənd, çay, düyü gətirilməsi yaxşı qarşılansa da zaman keçdikcə dinə zidd olan adətlər meydana gəlmiş, əksinə yas düşən evdə ehsan verilməsi,gələnlər üçün bahalı və lazımsız, israfçı mərasimlər təşkil olunmağa başlanmışdır. Halbuki İslam tarixindən də məlum olduğu kimi Hz.Peyğəmbərimiz Məhəmmədin (s.a.s) oğlu İbrahim vəfat edərkən peyğəmbərimizin yaxın adamları onu tək qoymamış, evində həmin günlərdə yemək hazırlanmadığı üçün onun evinə yemək və sairə gətirməklə onun dərdinə şərik olduqlarını ifadə etmişlər. Halbuki zaman keçdikcə bu gözəl adət deqredasiyaya uğramış və bu gün gördüyümüz şəklə gəlib çıxmışdır.

Digər mühüm məsələ isə yas saxlamaqla bağlıdır. Məlum olduğu kimi ölünün yaxın adamları ona olan bağlılıqlarını və kədərlərini müxtəlif şəkillərdə ifadə etməyə çalışırlar. Məsələn, kişilər daha çox 40 gün ərzində üzlərini qırxmır, qadınlar isə öz kədərlərini göz yaşları, çox zaman isə şaxseylə, şivən qoparmaqla ifadə edirlər[12]. Təəssüf ki, İslam dininə heç bir aidiyatı olmayan, vaxtilə Hz.Peyğəmbərimizin (s.a.s) özünün qadağan etdiyi üz cırmaq, şivən qaldırmaq kimi xoşagəlməz adətlər Sovet dövrün bəzi tədqiqatçılarına İslamı ləkələmək üçün bəhanə vermişdir. Ona görə də bugünkü müstəqilik dövründə əlimizdə olan imkanlardan istifadə edərək sadə insanları məlumatlandırmaq qarşımızda bir vəzifə olaraq durmaqdadır.

Ehsan verilməsi Azərbaycan xalqının adətləri içərisində özünəməxsus yer tutmaqdadır. Əvvəllər imkanlı adamlar öz ölülərinə savab qazandırmaq üçün ehsan verərdilərsə də zaman boyunca bu adət ilkin formasını itirmiş, hamının əməl etməyə məcbur olduğu bir doqma halına gəlmişdir.

Müasir dövrdə bu adət bir çox israfçı, lüzümsuz mərasimlərlə müşayiət olunur, imkansız ailələr bundan xeyli əziyyət çəkir, lakin bunun İslami

---

[12] B.Abdullayev, *Haqqın səsi,*Bakı, Azərnəşr,1989. s.100.

prinsiplərə zidd olduğu haqda geniş maariflənmə işləri aparılmadığından hələ də bu adətlər geniş vüsət alaraq inkişaf etməkdə, özündə yeni-yeni bidətləri toplamaqdadır. Bu adətlər yalnız ehsan mərasimləri, ölənə yeddi, qırx, əlli iki, il, qara bayram verməklə məhdudlaşmayaraq qəbiristanlıqlara da sirayət etmiş, bir çox dəbdəbəli qəbirlər böyük xərc bahasına başa gələrək həm insanların maddi durumuna ziyan vurur, həm də İslami prinsiplərə zidd olmaqla axirət dünyasına köçmüş olan şəxsə heç bir fayda vermir. Qeyd etmək lazımdır ki, ölkəmizin bir çox bölgələrində qəbiristanlıq adətləri olduqca qəribə və lüzumsuz şəkildə inkişaf etmişdir.

## NƏTİCƏ

Yuxarıda gördüyümüz kimi ölümün qaçılmaz bir hadisə olaraq qəbul edilməsinə görə, ölüm ətrafında bir çox spesifik adət , inanc, ayin, dini və qeyri-dini rituallar yaranmışdır. Gördüyümüz kimi Azərbaycanda dəfn adət-ənənələrində islam dininin inkarolunmaz rolu vardır, xalqımızın yas mərasimləri İslam dininin qayda və qanunları əsasında qurulmuşdur. Lakin təəssüf ki, bəzi hallarda buraya müxtəlif bidətlər qarışmış, bu isə İslam əleyhdarları tərəfindən islam dininə qarşı iftiralar atmağa onlara imkan yaratmışdır. Bir faktı da diqqətdən qaçırmaq olmaz ki, Sovet hakimiyyəti illərində Azərbaycanda islam dininin və ümumiyyətlə milli mentalitetin qorunmasında məhz bu dəfn mərasimləri mühüm rol oynamıdır.Bir çox bidətlərin qarışmış olmasına baxmayaraq insanlarin şüurunda Allah inancının qorunub saxlanmasına bu mərasimlərin inkarolunmaz köməyi dəymişdir.

Müxtəlif bölgələrdə dəfn adətlərində müəyyən fərqliliklərin olmasına baxmayaraq ümumi şəkildə qeyd etməliyik ki, Azərbaycanın istisnasız olaraq bütün bölgələrində dəfn və yas mərasimlərinin keçirilməsində İslam dininin danılmaz rolu vardır.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. А.К.Алекперов. Исследования по археологии и етнографии Азербайджана. Издательство Академии наук Азербайджанской ССР. Баку.1960. s.204

2. H.A.Quliyev.A.S.Bəxtiyarov.Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları.Bakı. 1968.s.80.M.Səttərov İslam dini qalıqları Bakı.1967.s.4-57.

3. R.P.Əfəndiyeva. Azərbaycanlıların dəfn mərasimlərində bəzi islama-qədərki etiqadların qalıqları haqqında. AZSSR. Elmlər Akademiyasının məruzələri. XLIII cild.N;5 1987.s78.

4. A.Nəbiyev. Mərasimlər, adətlər, alqışlar. Bakı . 1993.s.79. A.Nəbiyev. Mərasimlər, adətlər, alqışlar. Bakı . 1993.s.79.B.Abdulla.Azərbaycan mərasim folkloru.Bakı.Qismət.2005.s.140.

5. N.Quliyeva. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı. 2005.s256.

6.Ə.S.Məmmədov. H.A.Quliyev.Azərbaycan adət və ənnənələri. Bakı. 1966. s.66.

7. H.A.Quliyev. Məişətimizdə adət ənənələr. Azərnəşr. Bakı.1976. s.18.

8. H.A.Quliyev. Azərbaycanda Ailə məişətinin bəzi məsələləri.Bakı.Elm. 1986.s.85.

9. T.Q.Səlimov. Abşeronlular.Bakı.Elm.1993 s.284.

10. H.Q.Qədirzadə.Ailə və məişətlə bağlı adətlər,inamlar, etnogenetik əlaqələr.Bakı.Elm.2003.s.212.

11. H.A.Quliyev.Azərbaycan xalq adətləri.Bakı.Elm.1972.s14.

12. B.Abdullayev. Haqqın səsi.Bakı Azərnəşr.1989. s.100.

**Гаджиев Т.Е.**

**Обычая похоронных ритуалов в Азербайджане**

**РЕЗЮМЕ**

Принимая смерть как неизбежное обстоятельство много специфических обычаев, верований, религиозных и нерелигиозных ритуалов были образованы вокруг него. Являясь мусульманской страной в Азербайджане роль похоронных ритуалов в исламе неизбежны и эти ритуалы построены по правам и порядкам ислама. Несмотря на различия обычаев в разных районах Азербайджана , похоронный ритуалы все же проводятся по обычаям ислама.

**Hajiyev T.E.**

**The customs of funeral rituals in Azerbaijan**

**RESUME**

Accepting death as inevitable circumstance many specific customs, beliefs, religious and not religious rituals have been formed around of it. Being the Muslim country in Azerbaijan a role of funeral rituals in an Islam these rituals are inevitable also are constructed by the rights and orders of an Islam. Despite of distinctions of customs in different areas of Azerbaijan, funeral rituals nevertheless are spent on customs of an Islam.